Economic factors affecting the liberalization of the pension system in Azerbaijan

Vafa Hashimova
Scientific researcher, Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: vefa.hashimli@yandex.ru
https://orcid.org/0000-0002-0392-1329

Abstract. Most important of the pension reforms is the liberalization of the pension system, that is, the creation of a private pension system. There are several factors that hinder the formation of a private pension system in Azerbaijan. The article examines the economic factors affecting the liberalization of the pension system in Azerbaijan. The article analyzed difficulties in collecting social security contributions, classification of countries by the process of collecting social insurance contributions, the ratio of active and passive insurance, informal employment, expenses for payments of contributions to the population for compulsory social insurance, the share of funds allocated from the state budget for social protection and social security in the budget expenditures, the need to conclude employment contracts during a pandemic.
Keywords: pension, social insurance contributions, ratio of active and passive insurance, informal employment.

http://dx.doi.org/10.29228/edu.329
JEL H55; **UDC** 331.105.6
To cite this article: Hashimova V. (2021). Economic factors affecting the liberalization of the pension system in Azerbaijan. *Economic Growth and Social Welfare*, Issue I, pp. 91-101.
Article history: Received – 23.08.2020; Accepted – 06.01.2021

Azərbaycanda pensiya sisteminin liberallaşdırılmasına təsir göstərən iqtisadi amillər

Vəfa Həşimova
AMEA İqtisadiyyat İnstitutu, "Həyat səviyyəsinin sosial-iqtisadi problemləri" şöbəsi, elmi işçi, dissertant. Azərbaycan. E-mail: vefa.hashimli@yandex.ru
https://orcid.org/0000-0002-0392-1329

Annotasiya. Pensiya təminatında həyata keçirilən islahatlardan ən mühümü pensiya sisteminin liberallaşdırılması, yəni qeyri-dövlət pensiya sisteminin yaradılmasıdır. Azərbaycanda qeyri-dövlət pensiya sisteminin formalaşdırılmasına mane olan bir neçə amillər mövcuddur. Məqalədə ölkəmizdə pensiya sisteminin liberallaşdırılmasına təsir göstərən iqtisadi amillər tədqiq olunmuşdur. Aparılan tədqiqat nəticəsində, sosial sığorta haqlarının yığılması prosesində yaranan çətinliklər, sosial sığorta tariflərinin yığılması prosesinə görə ölkələrin təsnifatı, aktiv-passiv sığortalı nisbəti, qeyri-rəsmi məşğulluq, məcburi sosial sığorta haqları ilə əhaliyə edilən ödənişlər üzrə xərclər, dövlət büdcəsindən sosial müdafiə və sosial təminata ayrılan vəsaitin büdcə xərclərinin tərkibində xüsusi çəkisi, pandemiya dönəmində əmək müqavilələrinin zəruriliyi təhlil edilmişdir.
Açar sözlər: pensiya, sosial sığorta tarifləri, aktiv-passiv sığortalı nisbəti, qeyri-rəsmi məşğulluq.

http://dx.doi.org/10.29228/edu.329
JEL H55; **UDC** 331.105.6
Məqaləyə istinad: Həşimova V. (2021). Azərbaycanda pensiya sisteminin liberallaşdırılmasına təsir göstərən iqtisadi amillər. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 91-101.
Məqalə tarixçəsi: göndərilib – 23.08.2020; qəbul edilib – 06.01.2021

Giriş / *Introduction*

Ölkəmizdə pensiya təminatı əhalinin sosial təminat sisteminin ən mühüm elementlərindən biridir. Pensiyaların müəyyən edilməsi, pensiya sistemin idarə olunması və pensiyaların əhaliyə çatdırılması mexanizmi günün tələblərinə cavab verməsi üçün islahatların həyata keçirilməsini tələb edir. Pensiya islahatlarının məqsədi ölkənin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına təsir etməkdir. Buna görə də pensiya təminatı sisteminin uzunmüddətli maliyyə dayanıqlığına və pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq üçün beynəxalq tendensiyalar nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, pensiya təminatında həyata keçirilən islahatlardan ən mühümü pensiya sisteminin liberallaşdırılması, yəni qeyri-dövlət pensiya sisteminin yaradılmasıdır. Qeyri-dövlət pensiya sisteminin yayılmasına 1980-ci ilin əvvəllərində özəl pensiya proqramının tətbiqi ilə Çili başçılıq etmişdir. Dünyada yayılmış dövlət pensiya sistemi artıq qeyri-

dövlət pensiya sistemi ilə əvəz edilməyə başlanmışdır. Dövlət tərəfindən maliyyələşdirilən pensiya sistemlərində məşğul əhali pensiyaçılar üçün maliyyə mənbəyidir. Qeyri-dövlət pensiya sistemində isə məşğul əhali fərdi pensiya hesablarında yığdıqları vəsaitləri pensiya əldə etmək üçün istifadə edirlər. Pensiyaya çıxdıqdan sonra keçmişdə ödədikləri vəsaitlər hesabına pensiya məbləği əldə edirlər. Fərdi hesablarda pensiya gəliri əldə etmək üçün toplanan vəsaitlərə dövlət tərəfindən müdaxilə olunmur və maliyyə institutlarının rəhbərliyi altında borc alətləri və kapitala investisiya qoyuluşu edilə bilər. Bu şəkildə əldə edilən fərdi yığımlar vasitəsilə sistemdəki risklərin və gəlirlərin fiziki şəxslər tərəfindən bölüşdürülməsi təmin edilir. Qeyri-dövlət pensiya sistemi maliyyə bazarlarının mühüm dinamikasını təşkil edir. Xüsusilə inkişaf etmiş ölkələrin məlumatlarını tədqiq etdikdə, qeyri-dövlət pensiya fondlarının aktivlərinin ÜDM-ə nisbətinin yüksək olduğu görünür.

Təkcə onu qeyd etmək lazımdır ki, İƏİT ölkələrində 2008-ci ildə 23 trilyon dollar olan qeyri-dövlət pensiya fondlarının aktivləri 2018-ci ildə 42,5 trilyon dollara çatmışdır. Qeyri-dövlət pensiya fondlarının aktivlərinin cəmi 62%-si, yəni 27,5 trilyon dolları ABŞ-ın payına düşür. ABŞ-dan sonra Böyük Britaniya – 2,8 trilyon dollar, Kanada – 2,5 trilyon dollar, Avstraliya – 1,9 trilyon dollar, Niderland – 1.5 trilyon dollar və Yaponiya – 1,4 trilyon dollar paya malikdir. 2018-ci ildə qeyri-dövlət pensiya fondlarının aktivlərinin ÜDM-yə nisbətində ilk yeri 198,6%-lə Danimarka tutmuş, Niderland – 173,3%, İslandiya – 161%, Kanada – 155,2% və İsveçrə – 142,4% nisbətə malik olmuşdur (Pension Market, 2019).

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Dövlət Proqramı və İslahat Konsepsiyasında Azərbaycanda vətəndaşların könüllü yığımlarını tənzimləyən və fərdi pensiya hesablarına əsaslanan qeyri-dövlət pensiya sistemi yaratmaq nəzərdə tutulmuşdur. Pensiya sisteminin dayanıqlı və dinamik inkişafı üçün 30 dekabr 2008-ci il tarixli "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafında dair Dövlət Proqramı"nda (DP, 2008) və "2014-cü il 04 noyabr tarixli "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nda (Konsepsiya, 2014) əsas istiqamətlərdən biri də könüllü yığım komponentinin fəallaşdırılması, qeyri-dövlət pensiya institutlarının yaradılması və inkişaf etdirilməsi olmuşdur. Buna baxmayaraq, hələ də ölkəmizdə qeyri-dövlət pensiya sistemi formalaşdırılmamışdır. Belə ki, ölkəmizdə pensiya sisteminin liberallaşdırılmasına, yəni qeyri-dövlət pensiya sisteminin formalaşdırılmasına mane olan bir sıra amillər mövcuddur. Belə amillərə demoqrafik, iqtisadi və sosial amillər daxildir. Bu məqalədə pensiya sisteminin liberallaşdırılmasına təsir edən iqtisadi amillər təhlil olunmuşdur.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

Ümumiyyətlə, pensiya sisteminə təsir göstərən iqtisadi amillər dedikdə, iqtisadi ədəbiyyatlarda ölkənin iqtisadi inkişaf səviyyəsini, kapital yığımını, investisiya potensialını, fond bazarının aktivliyini, vergi və sığorta sistemlərinin liberallaşdırılmasını nəzərdə tuturlar. (Abdullayeva və Həşimova, 2017). Lakin ölkəmizin pensiya sistemində iqtisadi yanaşma baxımından son dərəcə aktual problemlər mövcuddur. Bu problemlər sosial sığorta haqqlarının yığılmasında, aktiv-passiv sığortalı nisbətində, iqtisadi fəaliyyətin gizlədilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (DSMF) gəlir və xərclərində özünü göstərir.

Pensiya sistemi və onun sosial-iqtisadi əhəmiyyəti haqqında geniş tədqiqatlar İƏİT-in hesabatlarında da öz əksini tapmışdır. Belə hesabatlarda dövlət və qeyri-dövlət pensiya sistemlərinin formalaşması və demoqrafik, iqtisadi və sosial amillər araşdırılıb. Dünya ölkələri məcburi sosial sığorta haqları və gəlir vergisi haqqında İƏİT-in "Tax Wages" ("Vergi tutulan Əmək Haqları") adlı hər il nəşr olunan hesabatında əks olunmuşdur (OECD, 2020b). Ölkəmizin İƏİT-in pensiya sistemi ilə bağlı tərtib etdiyi hesabatlarda yer almamasının ən əsas səbəbi ölkəmizdə qeyri-dövlət pensiya sisteminin formalaşdırılmamasıdır.

Sosial sığorta tariflərinin yığılma prosesinə görə ölkələr üç təsnifat əsasında qruplaşdırılır.

Bu təsnifat qrupları Piter Barrand, Stenford Ross və Qrem Harrison tərəfindən “Vergilərin və sosial sığorta haqlarının toplanması üçün vahid vergi idarəsinin inteqrasiyası: Mərkəzi və Şərqi Avropa ölkələrinin təcrübəsi” adlı hesabatında geniş şərh edilmişdir. Hesabatda, həmçinin ölkələrdə sosial sığorta haqlarının yığılmasının təşkil olunması prosesinin istiqamətləri və elementləri nəzərdən keçirilmişdir (Barrand, Ross və Harrison, 2004).

Qeyri-formal məşğulluğun qarşısının alınması daim dövlətin diqqət mərkəzində olmuşdur. Bu problemin aradan qaldırılması üçün dövlət tərəfindən bir sıra Tədbirlər Planı və Strategiyalar qəbul edilmişdir. Professor Y. Həsənli iqtisadi fəaliyyətin gizlədilməsini “Kölgə iqtisadiyyatı və vergi kəsiri” adlı məqaləsində geniş tədqiq etmişdir. Müəllif, iqtisadi fəaliyyətin gizlədilməsinin *iqtisadi fəaliyyətin tamamilə uçotdan gizlədilməsi* və *iqtisadi fəaliyyətin qismən uçotdan gizlədilməsi* kimi şərti olaraq qruplaşdırır. Birinci proses hüquqi və fiziki şəxslərin vergi uçotuna alınmadan fəaliyyət göstərməsi və fəaliyyətin nəticələrinə dair vergi bəyannamələrinin vergi orqanlarına təqdim edilməməsi və ya boş bəyannamələrin təqdim edilməsidir. İkinci proses isə vergi orqanlarına təqdim edilən bəyannamələrdə təhrif olunmuş məlumatların əks etdirilməsi və gəlirlərin həcminin süni şəkildə azaldılması və ya sosial ayırmalardan qaçmaq məqsədilə işçilərə ödənilən əməkhaqqı ödənişlərinin vergi bəyannaməsində az əks etdirilməsidir. Bütün bunlar büdcə gəlirlərinin azalmasına və gələcəkdə işçinin pensiya təminatının aşağı düşməsinə səbəb olacaqdır (Həsənli, 2019).

2020-ci ildə “Sosial-İqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi” İctimai Birliyi və Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə qeyri-formal məşğulluğun səviyyəsinin azaldılması üçün kitabça nəşr edilmişdir. Kitabçada sahibkarlar, işəgötürən və işçilər üçün qeyri-formal məşğulluğun fəsadları, gələcək həyatlarında yarana biləcək risklər haqqında geniş tədqiqat aparılmışdır. Kitabçada qeyri-rəsmi məşğulluğun, əsasən, özünü qeyri-dövlət sektorunda büruzə verməsi qeyd olunur. Bu proses bütün dünya ölkələrində və ölkəmizdə, xüsusilə tikinti və xidmət sektorunda özünü göstərir. Dünya Bankının məlumatlarına əsasən dünyada məşğul əhalinin 80%-i pərakəndə satış və tikinti kimi sahələrdə qeyri-rəsmi əmək bazarının iştirakçılarıdır (QFM, 2020). Qeyri-rəsmi məşğulluğu stimullaşdıran faktorlar aşağıdakılardır: 1) sosial-iqtisadi münasibətlərinin zəif inkişafı; 2) pensiya, işsizlikdən sığorta və s. sosial təminat mexanizmlərinin təşviqedici olmaması; 3) sosial-iqtisadi institutların tam formalaşmaması; 4) əmək qüvvəsinin təhsil səviyyəsinin aşağı olması; 5) biznes mühitinin leqallıq səviyyəsinin aşağı olması; 6) vergi və fiskal öhdəliklərin ağırlığı; 7) nəzarət mexanizmlərinin zəif inkişafı (QFƏB, 2018).

Metodologiya

Tədqiqatın yerinə yetirilməsi prosesində analitik ümumiləşdirmə, müqayisə və təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının Hesablama Palatasının rəyləri, Azərbaycan Respublikası Statistika Komitəsinin statistik göstəriciləri, 2010-2020-ci illəri əhatə edən Azərbaycan Respublikasının Dövlət Büdcəsi haqqında Qanunları, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatları, İƏİT-in hesabatları təşkil edir.

Nəticələr və müzakirə

Məcburi sosial sığorta haqlarının yığılması

Azərbaycanda pensiya sisteminin liberallaşdırılmasına təsir edən iqtisadi amillərdən ən mühümü yığımların toplanmasıdır. Həmin yığımlar *məcburi sosial sığorta haqları* vasitəsilə yığılır. Pensiya sisteminin bu seqmentində yığılmış maliyyə mənbələrinin həcmi əhalinin müxtəlif təbəqələrinin, işəğötürənlərin və dövlətin mənafelərinə təsir göstərir.

Azərbaycanda məcburi sosial sığorta ödəmələri “Sosial sığorta haqqında” Qanuna əsasən müəyyən olunur. Qanuna əsasən, məcburi dövlət sosial sığorta haqqı əmək ödənişinə nisbətdə faizlə müəyyən edilir, 22% sığortaedənin və 3% sığortaolunanın vəsaiti hesabına ödənilir. İƏİT ölkələrində ödənilən sosial sığorta haqlarını müqayisə etmək üçün aşağıdakı cədvəli nəzərdən keçirək:

Cədvəl 1. İƏİT ölkələri üzrə sosial sığorta tarifləri, 2018

Ölkələr	İşçi (%)	İşəgötürən (%)	Ölkələr	İşçi (%)	İşəgötürən (%)
ABŞ	7,1	7,6	İtaliya	7,2	24,0
Almaniya	16,8	16,5	Kanada	6,7	9,5
Avstraliya	0,0	5,6	Koreya	7,8	9,4
Avstriya	14,0	22,0	Latviya	8,9	19,4
Belçika	11,0	21,3	Litva	19,2	1,8
Böyük Britaniya	8,5	9,8	Lüksemburq	10,8	12,1
Çexiya	8,2	25,4	Macarıstan	15,4	16,7
Çili	7,0	0,0	Meksika	1,2	10,4
Danimarka	0,0	0,0	Niderland	11,7	10,7
Estoniya	1,2	25,3	Norveç	7,3	11,5
Finlandiya	8,1	17,0	Polşa	15,3	14,1
Fransa	8,3	26,6	Portuqaliya	8,9	19,2
İrlandiya	3,6	9,9	Slovakiya	10,3	23,3
İslandiya	0,3	6,2	Sloveniya	19,0	13,9
İspaniya	4,9	23,0	Türkiyə	12,8	14,9
İsrail	7,6	5,4	Yaponiya	12,5	13,3
İsveç	5,3	23,9	Yeni Zelandiya	0,0	0,0
İsveçrə	5,9	5,9	Yunanıstan	12,7	19,9

Mənbə: OECD (2020b).

İƏİT ölkələrindən Avstraliya, Danimarka və Yeni Zelandiyada işçilər sosial sığorta haqqı ödəmirlər, Estoniya, İslandiya və Meksikada isə işçilərin sosial sığorta haqları 0,3-1,2 faiz aralığında dəyişir. İşçilərin ödədikləri ən yüksək sosial sığorta haqqları isə Sloveniyada (19%), Litvada (19,2%) və Almaniyada (16,8%) qeydə alınır. İşəgötürənlər üçün sosial sığorta tarifləri İƏİT ölkələrində ən yüksək Fransa (26,6%), Çexiya (25,4%), Estoniya (25,3%), İtaliya (24%), İsveç (23,9%), Slovakiya (23,3%) və İspaniyadadır (23%), ən aşağı sosial sığorta haqları Danimarka, Çili və Yeni Zelandiyada – 0% təşkil edir. Göründüyü kimi, Yeni Zelandiya və Danimarkada həm işəgötürənlər, həm də işçilər üçün sosial sığorta haqları 0% təşkil edir. Lakin Danimarkada işçilər əmək haqqının 35,6% həcmində gəlir vergisi ödəyirlər. Bu isə İƏİT ölkələri arasında ən böyük gəlir vergisi göstəricisidir. Yeni Zelandiyada isə işçilər 18,8% gəlir vergisi ödəyirlər. Cədvəl 1-ə nəzər saldıqda, aydın görmək olar ki, liberal iqtisadiyyata malik olan ölkələrdə sosial sığorta ödəmələri ya yoxdur, ya da kiçik məbləğdədir. Azərbaycan da daxil olmaqla, nisbətən dirijist iqtisadiyyata malik olan ölkələrdə isə sosial sığorta tarifləri yüksəkdir.

Sosial sığorta tariflərinin yığılması prosesi ölkədən-ölkəyə dəyişir. Belə ki, bu proses vergi orqanları, sosial təminat institutları və pensiya fondları tərəfindən həyata keçirilir. Ölkəmizdə isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu bu sahədə fəaliyyət göstərir. Sosial sığorta tariflərinin yığılma prosesinə görə ölkələrin təsnifatı aşağıdakı cədvəldə daha aydın əks olunmuşdur:

Cədvəl 2. Sosial sığorta tariflərinin yığılma prosesinə görə ölkələrin təsnifatı

Yığım müəssisələri	Ölkələr
Vergi orqanları	Avstraliya, Yeni Zelandiya, Kanada, ABŞ, Argentina, Böyük Birtaniya, Norveç, İsveç, İtaliya, İrlandiya, Estoniya, Latviya, Xorvatiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Albaniya, Rusiya, Monteneqro, Slovakiya, Sloveniya
Sosial təminat intitutları	Yaponiya, Koreya, Fillipin, Tayland, Çin, Braziliya, Meksika, Uruqvay, Belçika, Fransa, Almaniya, Polşa, Çexiya, Gürcüstan, Litviya və digər post sovet ölkələri
Pensiya fondları	Honq Konq, Malayziya, Sinqapur, Çili, El Salvador, Peru,

Mənbə: Barrand, Ross və Harrison, 2004.

Aktiv və passiv sığortalı nisbəti

Azərbaycanda pensiya sisteminin liberallaşdırılmasına təsir edən iqtisadi amillərdən ikincisi pensiya-sığorta qurumlarının maliyyə balanslarının qiymətləndirilməsində ən çox istifadə olunan meyar – aktiv/passiv sığorta olunanların nisbətidir. Bu bir pensiyaçını nə qədər işçinin maliyyələşdirdiyini göstərir. Bu nisbətin bəzi inkişaf etmiş ölkələrdə 4, hətta bəzilərində 7 nisbətində olması mümkündür. Ancaq bu nisbətin ən azı iki olması nəzərdə tutulur. Əgər 2-dən aşağı göstərici varsa, sosial təminat sistemində maddi problemlərin mövcud olması deməkdir. Azərbaycanda aktiv-passiv sığortalı nisbəti 2013-cü ildə 2,07 idi. Bu o deməkdir ki, 1 pensiyaçını 2,07 işçi maliyyələşdirir. Hazırda 2018-ci ildə aktiv-passiv sığortalı nisbəti bir qədər yüksələrək 2,8 olmuşdur. Cədvəl 3-də göründüyü kimi, ölkəmizdə pensiya təminatı sistemində artıq maliyyə problemləri yaranmışdır. Mütəmadi olaraq pensiya yaşının artırılması və "gizli məşğulluğun" qarşısını almaq üçün görülən tədbirlər nəticəsində bu nisbətin bir qədər artırılmasına nail olunmuşdur.

Cədvəl 3. Azərbaycanda aktiv-passiv sığortalı nisbəti

Göstəricilər	2013	2014	2015	2016	2017	2018
Sığortaolunanların sayı	2637028	2941308	3152503	3316678	3528466	3690120
Pensiyaçıların sayı	1272136	1277053	1290882	1299946	1315229	1318434
Aktiv-passiv sığortalı nisbəti	2,07	2,3	2,44	2,55	2,68	2,8

Mənbə: ARHP (2020)-nin məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.

Cədvəldən göründüyü kimi, ölkəmizdə sığortaolunanların və pensiyaçıların sayı arasındakı nisbətin mövcud səviyyəsinin qənaətbəxş olmaması gələcəkdə dövlətin sosial yükünün artmasına səbəb ola bilər. Bu problemin aradan qaldırılması üçün sığortaedən ilə sığortaolunan arasında sosial sığorta haqqının bölüşdürülməsi mexanizmi yenidən işlənməlidir. Qeyd etmək lazımdır ki, sığortaedənlər üçün bu tarifin aşağı salınması əmək haqqının rəsmiləşməsinə və gizli məşğulluğun xüsusi çəkisinin azalmasına səbəb olacaqdır.

İqtisadi fəaliyyətin gizlədilməsi

Azərbaycanda pensiya sisteminin liberallaşdırılmasına təsir edən iqtisadi amillərdən biri də iqtisadi fəaliyyətin gizlədilməsidir. Ölkəmizdə sosial sığorta haqqlarından yayınmaq məqsədilə iqtisadiyyatın bir çox sahələrində, əsasən də qeyri-dövlət sahələrində çalışan işçilərin əmək haqları rəsmi və qeyri-rəsmi mühasibatlıq əsasında hesablanır. Bu isə o deməkdir ki, işçilərə verilən əmək

haqqı ilə qeydə alınan əmək haqqı arasında xeyli fərq mövcuddur. Daha sonra qeyd etmək lazımdır ki, bu sahədə çalışan bəzi işçilər Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi bağlanmadığı üçün sosial sığorta haqqı ödəmirlər. Bu proses büdcə gəlirlərinin azalmasına və pensiya dövrü üçün pensiya məbləğinin formalaşmasına mənfi təsir göstərir. Beləliklə, sosial sığorta haqqlarının yığılmasında mövcud olan çətinliklər dövlətin sosial yükünün artmasına səbəb olur.

Azərbaycanda qeyri-rəsmi məşğulluqla bağlı vəziyyəti təhlil etmək üçün aşağıdakı cədvəli nəzərdən keçirək:

Cədvəl 4. Qeyri-rəsmi əmək bazarı iştirakçıları, min nəfərlə

	2014	2015	2016	2017	2018
Məşğul əhalinin sayı	4602,9	4671,6	4759,9	4822,1	4879,3
Sığortaolunanların sayı	2941,31	3152,5	3316,78	3528,57	3690,12
Qeyri-rəsmi əmək bazarı iştirakçısı	1661,59	1519,1	1443,12	1293,53	1189,18
%-lə	36,1	32,5	30,3	26,8	24,4

Mənbə: ARDSK (2020) və ARHP (2020)-nin rəyi əsasında müəllif tərəfindən hesablanmışdır.

Statistik rəqəmlərin təhlili göstərir ki, son 5 ildə məşğul əhalinin sayı 1,1 dəfə, sığortaolunanların sayı isə 1,3 dəfə artmışdır. Əgər 2018-ci ildə Azərbaycanda məşğul əhalinin sayı 4879,3 min nəfər və faktiki sığorta ödəyicilərinin sayı 3690,12 min nəfər təşkil edirsə, onda 1189,18 min nəfər və ya məşğul əhalinin 24,4% qeyri-rəsmi əmək bazarının payına düşür. Məşğul əhalinin 75,6% rəsmi əmək bazarının iştirakçısıdır. Təhlildən göründüyü kimi, 2014-2018-ci illəri əhatə edən dövrdə qeyri-rəsmi əmək bazarında iştirakçı sayı 11,7 faiz bəndi azalmışdır. Bu dəyişiklik son illərdə məşğulluğun təmin oluması haqqında dövlətin qəbul etdiyi strategiya və proqramlar nəticəsində mümkün olmuşdur. Məşğulluq siyasətinin əsas müddəaları “AR-nın Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)” (DP, 2007), “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” (DP, 2011) və “Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nda (TP, 2017) öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, pensiya sistemi qeyri-rəsmi məşğulluqda ən mühüm təşviq mexanizmlərindən biridir. Belə ki, pensiya təminatını sığorta stajı və ödənilən məcburi sosial sığorta haqları əsasında əldə etmək mümkün olur.

COVID-19 pandemiyasının Azərbaycan iqtisadiyyatına mənfi təsirlərindən yayınmaq üçün dövlət tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir. Ən önəmlisi iş yerləri və əməkhaqlarının qorunub saxlanması olmuşdur. Pandemiya dönəmində 910 mini dövlət sektorunda, 719 min isə özəl sektorda olmaqla 1 milyon 629 min işçinin iş yeri və əməkhaqqısının qorunması təmin edilib. COVİD-19 pandemiyası zamanı elektron icazələrin verilməsi əmək müqavilələrinin olmasını zəruri edir. Məşğulluğun artırılması, qeyri-məşğulluğun qarşısının alınması və rəsmi məşğulluğa keçidin stimullaşdırılması nəticəsində, xüsusilə pandemiya dövründə əmək müqavilələrin sayında artım müşahidə olundu. Təkcə onu qeyd etmək lazımdır ki, 1 may 2020-ci il tarixinə qədər əmək müqavilələrinin sayı 105 min artmış və bu artımın 89,5%-ni özəl sektor təşkil etmişdir (ARƏƏSMN, 2020).

Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (DSMF) gəlirləri və xərcləri

Pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılması daim ölkə başçısının diqqət mərkəzində olmuşdur. Dövlət büdcəsinin gəlirlərinin artması sosial müdafiəyə və sosial təminata ayrılan

xərclərin artırılmasına təkan vermişdir. Əgər 2006-cı ildə dövlət büdcəsində sosial müdafiə və təminat üçün 341,5 milyon manat ayrıldığı halda, 2019-cu ildə bu rəqəmin 6,7 dəfə artaraq 2281 milyon manat olmasına baxmayaraq, büdcədə xüsusi çəkisi bu illər ərzində çox cüzi dəyişib. Belə ki, büdcədən sosial müdafiə və sosial təminata ayrılan vəsaitin büdcə xərclərinin tərkibində xüsusi çəkisi 2006-cı ildəki 9%-dən 2016-cı ildə 15%-ə qədər artdığı halda, 2019-cu ildə bu göstərici 9,3% olmuşdur.

Dövlət büdcəsindən DSMF-ə ayrılan vəsaitlərin xüsusi çəkisinin yüksək olması sosial sığorta haqlarının yığılması prosesində mövcud olan problemləri əks etdirir. Pensiya təminatı sisteminin maliyyələşməsində dövlət büdcəsindən ayrılan vəsaitlərə nəzər salmaq üçün pensiya təminatını həyata keçirən orqanın son 10 ildəki maliyyə göstəricilərinə baxmaq lazımdır. Qeyd etmək lazımdır ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (DSMF) gəlirləri məcburi dövlət sosial sığorta haqları, sair gəlirlər və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan daxilolmalar hesabına formalaşır.

Cədvəl 5. 2010-2020-ci illərdə təsdiq olumuş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (DSMF) gəlirləri, min manatla

İllər	**2010**	**2015**	**2016**	**2017**	**2018**	**2019**	**2020**
Cəmi gəlirlər	1768,6	3056,322	3307,37	3400	3578,76	4128,104	4825,509
Dövlət büdcəsidən transfertlər	533,7	1100	1246	1270	1300	1352,7	1426,9
Dövlət büdcəsindən transfertlərin DSMF-in ümumi gəlirlərində xüsusi çəkisi	**30,2%**	**36%**	**37,7%**	**37,4%**	**36,3%**	**32,8%**	**29,6%**
DSMF-in gəlirləri	1234,9	1956,322	2061,37	2130	2278,76	2775,4	3398,6
o cümlədən: məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlər	1232,4	1950,222	2055	2125	2273,26	2769,4	3392,6
Məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin DSMF-in ümumi gəlirlərində xüsusi çəkisi	**69,7%**	**63,8%**	**62,1%**	**62,5%**	**63,5%**	**67,1%**	**70%**

Mənbə: NHA (2020) əsasında müəllif tərəfindən hesablanmışdır.

Cədvəl 5-dən göründüyü kimi, DSMF-in gəlirlərində dövlət büdcəsindən transfertlərin həcmi əvvəlki illərdə yüksək olsa da, hazırda azalmaq üzrədir. Əgər 2010-cu ildə dövlət büdcəsindən transfertlərin DSMF-in ümumi gəlirlərində xüsusi çəkisi 30,2% idisə, 2016-cı ildə bu göstərici 37,7%-ə qədər yüksəlmişdir. Hazırda 2020-cı il üçün həmin göstərici 29,6% təşkil edir. Bu isə onu göstərir ki, məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin DSMF-in ümumi gəlirlərində xüsusi çəkisi artmışdır. Belə ki, 2010-cu ildə məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin DSMF-in ümumi gəlirlərində xüsusi çəkisi kimi 69,7% olan bu göstərici, 2016-cı ildə 62,1%-ə qədər düşmüşdür. Hazırda 2020-ci il üçün bu göstərici 70% təşkil edir. Bu, əsasən, 2019-cı ilin iyun ayında ölkə başçısı tərəfindən minimum əmək haqqının və ayrı-ayrı sahələrdə çalışanların əmək

haqqının artırılmasının məcburi dövlət sosial sığorta haqları üzrə yığımlara gözlənilən təsiri ilə izah olunur. Bununla yanaşı, məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlər ən yaxşı halda DSMF xərclərinin 65,5%-ni ödəyə bilər.

Əmək pensiyaları üzrə xərclərin MDSSH üzrə yığımlar hesabına ödənilməsində əhəmiyyətli problemlər mövcuddur. Aşağıdakı cədvəldə 2010-2020-ci illərdə DSMF-in xərclərini nəzərdən keçirək:

Cədvəl 6. 2010-2020-ci illərdə təsdiq olumuş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (DSMF) xərcləri, min manatla

Xərclərin istiqamətləri	2010	2015	2016	2017	2018	2019	2020
Əhaliyə ödənişlər üzrə xərclər o cümlədən:	1716,9	2989,2	3238,95	3328,22	3495,1	4020,5	4684,7
əmək pensiyalarının ödənilməsi xərcləri	1662,5	2910,5	3136,1	3213,82	3407	3918,4	4570,1
Məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri	54,4	78,7	102,85	104,4	88,1	102,04	114,6
MDSSH-nın əmək pensiyaları üzrə xərclərdə xüsusi çəkisi	74,1%	67%	65,5%	65,8%	66,7%	71%	74,2%

Mənbə: NHA (2020) əsasında müəllif tərəfindən hesablanmışdır.

Göründüyü kimi 2010-2020-ci illərdə əmək pensiyalarının ödənilməsi xərcləri 2,75 dəfə artmışdır. Məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri isə 2,11 dəfə yüksəlmişdir. Əmək pensiyaları üzrə xərclərinin böyük hissəsi MDSSH hesabına formalaşır. Qeyd etmək lazımdır ki, MDSSH-nın əmək pensiyaları üzrə xərclərdə xüsusi çəkisi kimi göstəricidən pensiya təminatı sisteminin maliyyə dayanaqlılığını ölçmək üçün istifadə edilə bilər (CESD, 2017). Aparılan təhlilərə əsasən, əgər dövlət büdcəsindən transfertlər olmasa, MDSSH əmək pensiyaları üzrə xərclərin ən yaxşı halda yalnız 69,2%-ni ödəyə bilər. Aparılan təhlil göstərir ki, MDSSH nə qədər çox ödənilərsə, əhaliyə bir o qədər çox ödənişlər edilə bilər. Qeyd etmək lazımdır ki, məcburi dövlət sosial sığorta haqları üzrə yığımların artması həm əmək pensiyalarının ödənilməsi xərclərini, həm də məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərclərini artıracaqdır. Bu isə əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına səbəb olacaqdır. Sığortaolunanlar üzrə ödənilən sosial sığorta haqları ilə pensiya və müavinətlər arasında əlaqənin daha da gücləndirilməsi üçün ilk növbədə "gizli işləyənlər"in sayının azaldılması və qeydiyyata alınması zəruridir.

Nəticə / *Conclusion*

Pensiyaların ödənilməsi üçün DSMF-də vəsait çatışmazlığı və dövlət büdcəsindən DSMF-ə olunan transfertlərin məbləğinin azaldılması, MDSSH üzrə yığımların artırılması, sığortaolunanlar ilə işəgötürənlər arasındakı mexanizmin yenidən işlənilməsi və əlavə maliyyə mənbələrinin yaradılması nəzərə alınaraq, pensiya sisteminin tənzimlənməsi böyük əhəmiyyətə malikdir. Bu şərtlər nəzərə alınmadan pensiya sisteminin liberallaşdırılmasından danışmaq çətindir.

Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir:

- Liberal iqtisadiyyata malik olan ölkələrdə sosial sığorta ödəmələri ya yoxdur, ya da kiçik məbləğdədir. Azərbaycan da daxil olmaqla, nisbətən dirijist iqtisadiyyata malik olan ölkələrdə isə sosial sığorta tarifləri yüksəkdir;
- Aktiv-passiv sığortalı nisbəti ölkəmizdə pensiya təminatı sistemində artıq maliyyə problemləri yaratmışdır. Mütəmadi olaraq pensiya yaşının artırılması və "gizli məşğulluğun"

qarşısını almaq üçün görülən tədbirlər nəticəsində bu nisbətin bir qədər artırılmasına nail olunmuşdur;

- Ölkəmizdə sığortaolunanların və pensiyaçıların sayı arasındakı nisbətin mövcud səviyyəsinin qənaətbəxş olmaması gələcəkdə dövlətin sosial yükünün artmasına səbəb ola bilər;
- Qeyri-rəsmi əmək bazarının dinamikasında azalma müşahidə edilir;
- Aparılan təhlil göstərir ki, MDSSH nə qədər çox ödənilərsə, əhaliyə bir o qədər çox ödənişlər edilə bilər. MDSSH üzrə yığımların artması həm əmək pensiyalarının ödənilməsi xərclərini, həm də MDSSH hesabına müavinət xərclərini artıracaqdır.

İstifadə edilmiş ədəbiyyat / *References*

Abdullayeva R., Həşimova V. (2017). Pensiya sisteminin liberallıq-inzibatilik səviyyəsi və sosial-iqtisadi inkişaf. İS(S)İ-2015: İqtisadiyyatın liberallıq potensialı (Nazim Müzəffərlinin elmi redaktəsi ilə). Bakı, 136 s.

ARDSK (2020). Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. www.stat.gov.az. İstinad tarixi: aprel, 2020.

ARƏƏSMN (2020). Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. http://sosial.gov.az/. İstinad tarixi: iyun, 2020.

ARHP (2020). Azərbaycan Respublikası Hesablama Palatası. http://sai.gov.az/1/reyler/. İstinad tarixi: aprel, 2020.

Barrand, Peter, Ross, Stanford and Harrison, Graham (2004). Integrating a Unified Revenue Administration for Tax and Social Contribution Collections: Experiences of Central and Eastern European Countries. *International Monetary Fund Working Paper* https://www.imf.org/external/pubs/ft/wp/2004/wp04237.pdf. Accessed: September, 2020.

CESD (2017). Pensiya əlçatanlığı: "Əmək pensiyaları haqqında" qanuna son dəyişiklərin qiymətləndirilməsi. CESD Tədqiqat Qrupu, Bakı. http://cesd.az/new/wp-content/ uploads/ 2017/09/CESD_UNDP_Paper_Pension_Sistem_in_Azerbaijan.pdf. İstinad tarixi: may, 2020.

DP (2008). "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafında dair Dövlət Proqramı"; http://www.e-qanun.az/ framework/ 15995. İstinad tarixi: may, 2020.

DP (2011). "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı". http://www.e-qanun.az/alpidata/frame-work/data/22/f_22533.htm; İstinad tarixi: aprel, 2020.

DP (2007). AR-nın Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər). http://www.e-qanun.az/alpidata/ framework/data/13/ c_f_13340.htm. İstinad tarixi: aprel, 2020.

Həsənli Yadulla (2019). "Kölgə iqtisadiyyatı" və vergi kəsiri. *UNEC Ekspert jurnalı. №1 (07). Xüsusi buraxılış: vergi islahatları,* 8-13.

Konsepsiya (2014). "2014-cü il 04 noyabr tarixli "2014-2020-ci illərdə Azərbaycan Respublika-sında pensiya təminatı sisteminin islahatı Konsepsiyası". http://www.e-qanun. az/framework/28572. İstinad tarixi: aprel, 2020.

QFƏB (2018). Qeyri - formal əmək bazarının iştirakçıları olaraq hansı hüquqlarınızadan imtina etmiş olursunuz. İqtisadi və Sosial İnkişaf Mərkəzi və Dövlət Dəstəyi Şurası. Bakı. http://cesd.az/new/wp-content/uploads/2018/11/Handbook-QHT-2018-%C4% B 0nfor mal-m%C9%99%C5%9F%C4%9Fulluq.pdf. İstinad tarixi: aprel, 2020.

QFM (2020). Qeyri-formal məşğulluğun sosial-iqtisadi fəsadları. Sosial İqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi (SİETM). 2020.

NHA (2020). Normativ-hüquqi aktların vahid internet elektron bazası. e-qanun.az. İstinad tarixi: avqust, 2020.

OECD (2020a). Private pension assets (indicator). doi: 10.1787/e694378a-en.

OECD (2020b). Tax Wages 2019-2020. https://read.oecd-ilibrary.org/taxation/taxing-wages-2019_ tax_wages-2019-en# page26. Accessed: October, 2020.

Pension Market (2019). Pension Market in Focus. OECD. https://www.oecd.org/daf/fin/ private-pensions/ Pension-Markets-in-Focus-2019.pdf. İstinad tarixi: avqust, 2020.

SMİT (2020). "Əhalinin sosial müdafiəsi sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı". http://www.mlspp.gov.az/ az/pages/ 4/25/information/219. İstinad tarixi: aprel, 2020.

TP (2017). "Azərbaycan Respublikasında qeyri-formal məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı". http://www.e-qanun.az/ alpidata/ framework/ data/ 36/c_f_ 36613.htm. İstinad tarixi: aprel, 2020.

Экономические факторы влияющие на либерализацию пенсионной системы в Азербайджане

Вафа Гашимова
Научный сотрудник Институт Экономики НАНА, Азербайджан.
E-mail: vefa.hashimli@yandex.ru

Резюме. Важнейшей из пенсионных реформ является либерализация пенсионной системы, то есть создание негосударственной пенсионной системы. Существует несколько факторов, которые препятствуют формированию негосударственной пенсионной системы в Азербайджане. В статье исследуются экономические факторы, влияющие на либерализацию пенсионной системы в нашей стране. В результате исследования был проанализирован трудности в процессе сбора взносов социального страхования, классификация стран по процессу сбора тарифов социального страхования, соотношение активного и пассивного страхования, неформальная занятость, расходы на выплату населению взносов по обязательному социальному страхованию, доля средств, выделяемых из государственного бюджета на социальную защиту и социальное обеспечение, в структуре расходов бюджета, необходимость заключения трудовых договоров во время пандемии.

Ключевые слова: пенсии, ставки социального страхования, коэффициент активного и пассивного страхования, неформальная занятость.